# Kitabxanada "O, caz-muğam kralıdır!" adlı videoçarx hazırlandı



**2025-ci il martın 16-da XX əsrin parlaq caz pianoçusu, bəstəkar Vaqif Mustafazadənin 85 illik yubileyi tamam olur. Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında həyata keçirilən "Yubileylər silsiləsi" layihəsi çərçivəsində dünyaşöhrətli pianoçu-cazmen Vaqif Mustafazadənin yubileyinə həsr olunmuş "O, caz-muğam kralıdır!" adlı videoçarx hazırlanıb.**

Bu barədə verilən məlumata görə, izləyicilərə təqdim olunan məlumatda Vaqif Mustafazadənin Azərbaycan caz musiqisinin banisi və yeni caz fikrinin təsisçisi, Azərbaycan caz-muğam hərəkatının memarı, XX əsr Azərbaycan tarixində ən məşhur və tanınmış caz ifaçısı olduğu bildirilir. Videoçarxda məlumat verilir ki, bəstəkar, pianoçu, Azərbaycan caz-muğam janrının banisi, Azərbaycan SSR Əməkdar artisti, Dövlət mükafatı laureatı (ölümündən sonra) Vaqif Əziz oğlu Mustafazadə 16 mart 1940-cı ildə Bakıda anadan olub. Asəf Zeynallı adına Musiqi Məktəbini (Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci) bitirdikdən sonra Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına (Bakı Musiqi Akademiyası) daxil olur, peşəkar musiqi təhsilini Müslüm Maqomayevlə birgə alır. O, tələbə vaxtlarında kiçik konsertlər verib, klublarda çıxış edib və əsasən klassik caz, blüz, oynaq mahnılar ifa edib.

Vaqif Mustafazadə 1964-cü ildən "Orero" ansamblına, "Qafqaz" caz üçlüyünə, "Leyli" və "Sevil" qadın vokal instrumental və "Muğam" instrumental ansambllarına rəhbərlik edib. Beynəlxalq caz müsabiqələri və festivallarının ("Tallin-66", "Tbilisi-78", Monte-Karlo) laureatı olub. Vaqif Mustafazadə "Sevil" vokal-instrumental ansamblının yaradıcısı və bədii rəhbəri olub. Ansambl 1971-1977-ci illərdə fəaliyyət göstərib və Azərbaycanın qadınlardan ibarət (4 qadın) ilk caz qrupu və vokal kvarteti idi. Ansamblın ifaçılarından biri pianoçu-cazmenin həyat yoldaşı Elza Mustafazadə idi.

V.Mustafazadə 1979-cu ildə Monakoda keçirilən caz festivalından Vətənə "Ağ royal" mükafatı ilə qayıdıb. O, fortepiano və simfonik orkestr üçün konsertin, "Muğam" simfoniyasının (tamamlanmamış), bir sıra caz kompozisiyalarının və pyeslərin müəllifidir. Görkəmli pianoçu Azərbaycan musiqisinin, muğamın klassik Amerikan caz musiqisi ilə sintezini yaradıb.

Vaqif Mustafazadə 1979-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına, ölümündən sonra 1982-ci ildə Dövlət mükafatına layiq görülüb.

Vaqif Mustafazadənin xatirəsinin əbədiləşdirilməsinə videoçarxda xüsusi bölmə ayrılıb. İzləyicilərə bildirilir ki, görkəmli cazmenin həyat və yaradıcılığından bəhs edən "Caz əfsanəsi - Vaqif Mustafazadə" sənədli film çəkilib. 1989-cu ildə Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlunun təşəbbüsü ilə Vaqif Mustafazadənin ev-muzeyi yaradılıb və onun ilk rəhbəri cazmenin anası Zivər xanım olmuşdur. Yasamal rayonundakı 2 nömrəli Uşaq İncəsənət Məktəbi Vaqif Mustafazadənin adını daşıyır. İçərişəhərdə Vaqif Mustafazadənin yaşadığı binanın fasadında barelyefi və Vaqif Mustafazadənin adını daşıyan küçə var.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar "Ulduzlara bir az yaxın" kitabında "Tikmişəm izim qala" adlı esseni, R.Fərhadov "Vaqif Mustafazadə" kitabını, R.Hüseynov "Min ikinci gecə" kitabında "Başqa günlərin Vaqifi" esseni V.Mustafazadəyə həsr ediblər. Anar essedə bu sözləri yazmışdır: "Vaqif Mustafazadə möhtəşəm musiqili qala ucaltmışdır. Bu qala onun Yer kürəsində izidir. Zamanın heç zaman pozub-silə bilməyəcəyi izdir".

Videoçarxda bir neçə ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin V.Mustafazadə haqqında maraqlı fikirləri yer alıb.

İsveç pianoçusu, cazmen, bəstəkar, aranjimançı Yan Yoxansson söyləmişdir: "Vaqifin musiqisi təəccüblü qədər müasirdir və eyni zamanda nəsillərin şairlərinin tərənnüm etdiyi qədim Qafqaz melodiyalarının sirlərini yayır. Onun musiqisindən qədim Şərq melodiyalarının ətri gəlir. Bu Şəhrizadın 1002-ci gecədə söylədiyi nağıla bənzəyir!".

Amerikalı caz müğənni və truba çalanı, XX əsrin ən məşhur caz ustalarından biri Çet Beyker qeyd edir: "Vaqif Mustafazadə dünyanın ən yaxşı pianoçularından biridir".

Polşa caz musiqiçisi Pavel Brodovski deməşdir: "Vaqif Mustafazadə özünəməxsus parlaq üslubu olan pianoçudur. O, cazını mükəmməl ifa edir və Azərbaycan koloritindən məharətlə istifadə edir. O, asanlıqla bir çox cazmenlərə nümunə ola bilər. O, caz-muğam kralıdır!".

Görkəmli amerikalı caz pianoçusu və musiqi tənqidçisi Vilyam Konover deməşdir: "Bu pianoçuya rəqib tapmaq çox çətindir. Mustafazadə ekstra-klass pianoçudur. Cazda onun tayı-bərabərini tapmaq çətindir. O, müasir caz dünyasının ən lirik pianoçusudur".



Xalq artisti, bəstəkar Rauf Hacıyev qeyd etmişdir ki, bu insan haqqında cild-cild kitablar yazılasıdır.

Xalq artisti, bəstəkar, tanınmış caz pianoçusu Rafiq Babayev: "Vaqif Mustafazadə caz sənətinin ən böyük ustadları haqqında deyiləcək və deyilə biləcək sözlərə layiqdir", - demişdir.

Bu gün Azərbaycanda caz-muğam janrı gözəl inkişaf edir. Vaqif Mustafazadənin qızı Lalə Mustafazadə məşhur pianoçudur, Parisin "Grand Opera"sında çalışır. Qızı Əzizə Mustafazadə Azərbaycanın Xalq artistidir, dünyaca məşhur pianoçu, bəstəkar və caz ifaçısıdır. Nəvəsi Ramiz Xan Vaqif Mustafazadənin yolu ilə gedən gənc pianoçudur.

Videoçarxın ideya müəllifi tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi Lətifə Məmmədova, hazırlayanı Yasamal Rayon Mərkəzi Kitabxanasının əməkdaşı Günay Qululudur.

Videoçarx tanınmış pianoçu, bəstəkar Vaqif Mustafazadənin ifasında popuri, "Bizim Bakı gecələri" və yaradıcısı olduğu "Sevil" vokal-instrumental ansamblın ifasında "Könlümün yadigarı" mahnısı ilə müşayiət olunur.

**M.MUSTAFA,**
**"Respublika".**

---

proqramlarının, qanunların, qərar və qaydaların icrasına Azərbaycan Qida Agentliyi başda olmaqla aidiyyəti orqanlar tərəfindən nəzarət edilir. Daxili bazarda istehlakçıların hüquq və mənafelərinin qorunması istiqamətində müvafiq qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş konkret tədbirlər həyata keçirilir. Yerli və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarətinin diqqətdə saxlanılması nəticəsində ölkədə əmtəə bazarının keyfiyyətsiz və sağlamlıq üçün təhlükəli məhsullardan qorunması vəzifəsi uğurla icra edilir. Ötən dövrdə həyata keçirilən müxtəlif tədbirlər, istehlakçı hüquqları ilə bağlı kütləvi informasiya vasitələrində edilən çıxışların, həmçinin istehsal, ticarət və xidmət, ictimai iaşə obyektlərində çalışan işçilərin maarifləndirilməsi bu baxımdan əhəmiyyətlidir.

Məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlılığı, təsərrüfat subyektlərinin istehsal-xidmət şəraiti, göstəricilərin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu daim nəzarətdə saxlanılır.

Antiinhisar siyasəti və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il 25 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti yaradılıb. Qurumun qarşısında inhisarçılığın qarşısının alınması, haqsız rəqabətlə mübarizənin gücləndirilməsi və istehlakçıların hüquqlarının etibarlı müdafiəsinin təmin olunması kimi mühüm vəzifələr qoyulub.

Prezident İlham Əliyevin 2020-ci il 23 oktyabr tarixli Fərmanı ilə yaradılan İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsas məqsədi azad rəqabətin və sahibkarlığın operativ şəkildə müdafiəsinin təmin olunmasıdır. Dövlət Xidməti Azərbaycan Respublikasının "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanununa əsasən bu sahədə müəyyən edilmiş norma və qaydalara riayət olunmasını, istehlak bazarında malların keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsini təmin edir. Bununla əlaqədar yararlılıq müddəti bitmiş, satışı qadağan olunmuş, saxta, mənşəyi məlum olmayan, istifadəyə yararsız, standartların və digər normativ sənədlərin tələblərinə cavab verməyən, insanların həyatı, sağlamlığı, əmlakı və ya ətraf mühit üçün təhlükəli malların satışdan (dövriyyədən) çıxarılması ilə bağlı tədbirlər görür.

Qeyd edək ki, respublikamızda istehsal olunan, idxal edilən malların üzərindəki etiketlər müvafiq xarici dillərə yanaşı, Azərbaycan dilində də yazılmalıdır. İstehlakçının tələbi ilə satıcı (istehsalçı, icraçı) malın mənşəyini, keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sənədləri ona təqdim etməyə borcludur. İstehsalçı və satıcı malın keyfiyyətinə və təhlükəsizliyinə zəmanət verməlidir. Bu gün istehlak bazarında satılan malların, görülən işlərin, göstərilən xidmətlərin keyfiyyət və təhlükəsizliyi ilə bağlı bir sıra müsbət dəyişikliklər müşahidə olunur. Aparılan maarifləndirmə tədbirlərinin nəticəsi olaraq istehlakçı hüquqlarının müdafiəsində ictimai nəzarətin rolu əhəmiyyətli dərəcədə artıb.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının qarşısının alınmasıdır. Bu məqsədlə 2021-ci ildə əhali tərəfindən daha çox istifadə olunan ərzaq və qeyri-ərzaq məhsullarının orta bazar qiymətlərinə nəzarət edilmiş, süni qiymət artımına yol verilməmişdir.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika.- 2025.- 15 mart (№57).- S.14.